# CAVİD ŞƏXSİYYƏTİ VƏ SÖZÜ ZAMANIN SINAĞINDA

**(H.Cavid haqqında bəzi düşüncələrim)**

**Etibar Talıblı**

**Bakı Dövlət Universitetinin dosenti**

**Açar sözlər**

Hüseyn Cavid, Cavid şəxsiyyəti, romantizm, romantik lirika, fəlsəfi dram

Böyük sənətkar, mütəfəkkir şair, görkəmli dramaturq, eyni zamanda böyük şəxsiyyət olan Hüseyn Cavid təkcə Azərbaycan ədəbiyyatının deyil, türk dünyası mədəniyyətinin ən parlaq simalarından biridir. Zaman keçdikcə onun irsinə və şəxsiyyətinə marağın tükənmədiyinin şahidi oluruq: hər ötən il bizi Cavid dünyasına, Cavid yaradıcılığına, Cavid şəxsiyyətinə daha da yaxınlaşdırır. Onu yenidən öyrənmək, yenidən şərh etmək ehtiyacı duyuruq. Bu zaman o həqiqəti də dərk edirik ki, **Cavid klassikimiz olduğu qədər də müasirimizdir**.

Özünün bu gün üçün də əhəmiyyətini itirməyən bəşəri, milli, humanist ideyaları ilə müasirimizdir;

Tariximizi öyrənməyə, onun şərəfli səhifələrini və şəxsiyyətlərini unutmamağa sövq etdiyi üçün müasirimizdir;

Millətimizi inkişafa, tərəqqiyə, yeniliyə səslədiyi üçün müasirimizdir;

Gözəlliyi, məhəbbəti, həyatı tərənnüm etdiyi üçün müasirimizdir;

İnsana, insanlığa sevgi aşıladığı üçün müasirimizdir;

İnsan haqlarını müdafiə etdiyi üçün, hər cür zülmə, haqsızlığa qarşı barışmaz mövqe tutduğu üçün müasirimizdir;

XX əsrin mürəkkəb beynəlxalq ictimai-siyasi xəritəsində var olmaq, qüdrətli olmaq naminə milli birliyə nə qədər ehtiyacımız olduğunu dönə-dönə xatırlatdığı üçün müasirimizdir:

*Çaşıb durma böylə... Bir aydın*
*İdeal arxasınca qoş, çırpın!*
*İdealsız nicat ümidi məhal...*

*"İttihad!" İştə ən böyük ideal!*
*Səni qurtarsa, qurtarır birlik,*
*Çünki birlikdədir fəqət dirlik!..*

**Cavid irsinə və şəxsiyyətinə münasibət** istər sağlığında, istər sonrakı dövrlərdə birmənalı, birxətli olmamışdır. XX əsrin əvvəllərində – Cavidin sənətkar kimi özünü təsdiq etdiyi ilk zamanlarda ədəbi tənqid ona uzun müddət diqqət yetirməmiş, pyesləri tamaşaya qoyulmamışdı. Lakin şeirlərini və dram əsərlərini o dövrdə nəşr etdirdiyindən tanınıb, qəbul edilmişdi. 1916-cı ildə Bakıya gəlişi haqqında qəzetlərdə belə bir məlumat verilmişdi: "Qafqazın müqdədir (yəni qüdrətli!) ədiblərindən Hüseyn Cavid əfəndi şəhərimizə varid olmuşdur". İnformasiyanın təqdim tərzində, cümlənin üslubunda böyük ehtiramı sezməmək mümkün deyil.

Sovet dövründə yaradıcılığına davam edən Cavidin əsərləri çap olunur və müntəzəm tamaşaya qoyulurdu. Cavidi oxucular, tamaşaçılar, bir sözlə, xalq sevir, böyük rəğbət bəsləyirdi. Lakin hakim bolşevik rejimi və onun ədəbiyyat çinovnikləri H.Cavidə fərqli – qeyri-obyektiv münasibət bəsləyirdilər, haqsız subyektiv tənqidlər, ideoloji ittihamlar onun həbs hökmünə zəmin hazırlayırdı. Bu qərəzkarlığın özündə belə, Cavid istedadının böyüklüyünü etiraf etməyə bilmirdilər. Tənqidçilərin biri yazırdı: "Böyük ədəbi çəkisinə baxmayaraq, Cavid inqilab epoxasının şairi deyildir". Yəni böyükdür, lakin bizdən deyildir.

Repressiyadan sonra Cavidə münasibətdə susqunluq (sanki belə bir insan, belə bir sənətkar, ümumiyyətlə, həyatda yaşamayıb), bəraətdən sonrakı dövrdə isə ehtiyatlı yanaşma hökm sürmüşdür. Bu ehtiyatlılıq özünü bəzi əsərlərin nəşrlərə salınmamasında, teatra yaxın buraxılmamasında, mətnlərin dilinə əl gəzdirilməsində, tədqiqatlarda yaradıcılıq böhranından, ziddiyyətlərindən danışılmasında özünü göstərirdi. Hətta Cavidin 100 illiyinin böyük təntənə ilə qeyd edildiyi, irsinin qayğı ilə nəşr və tədqiq edildiyi, sözün tam mənasında ədibə səmimi sevginin miqyaslı şəkildə təzahür etdiyi 1980-ci illərdə də əsərləri haqqında müəyyən yanlış fikirlərə rast gəlirik. Yəni tənqid və ədəbiyyatşünaslıq bir sıra hallarda Cavidə öz dövrünün hakim siyasi-ideoloji meyarları ilə yanaşmış,

onun əsərlərini öz arşınları ilə ölçmüşdür. Təkcə “Peyğəmbər” dramına münasibəti xatırlamaq kifayətdir. 1920-30-cu illərdə əsər, qəhrəmanının ideallaşdırılması, dinin təbliğ edilməsi iddiası ilə kəskin tənqid edilmişdir. Əsərin dillər əzbəri olan məşhur misralarına qarşı hikkəli, çılğın bir ədəbi kampaniya da aparılıb. Cavid yazırdı:

*Mən fəqət hüsni-xuda şairiyim,*
*Yerə enməm də, səma şairiyim.*

O dövrün gənc komsomolçu şairlərinin, demək olar ki, əksəriyyəti öhdəlik götürübmüş kimi, antinəzirə mövqeyindən, Cavidə qarşı mənzum bəyanatlar veriblər:

*Mən əzilən bir sinifin şairiyəm.*
*Mən nəfəsi neft və benzin qoxulu milyonların şairiyəm.* və s...

Əvvəla, o misralar Cavidin qəhrəmanının – Peyğəmbərin dilindən deyilir və obrazın dünyagörüşünün ifadəsidir. Düzdür, o misralarda müəyyən qədər Cavid özü də var, lakin şairin tam və yeganə özünüifadəsi sayıla bilməz. İkincisi, məgər Cavid əzilənlərin, məhkumların şairi deyildimi? Dərdi duyulmayanların dərdini dilə gətirib duydurmaq, haqqı tapdananların haqqını hayqırmaq Cavid yaradıcılığında aydın görünən qırmızı xətdir.

Əsər 60-cı illərdə müəllifin yaradıcılığının böhran dövrünün məhsulu kimi qiymətləndirilmiş; 80-ci illərdə isə hətta “inqilab-Oktyabr-Lenin” kontekstində (?!) təhlil edilmişdir. Qeyd edək ki, 1920-ci illərin qərəzkarlığında rejimə yarınmaq istəyi, Cavidi tənqidə özünütəsdiq vasitəsi kimi yanaşılması aydın görünürsə, 1960-cı illərdəki münasibətlərdə Cavidin əsərlərinə qadağandan sonrakı bəraət zəminində ehtiyatlı yanaşaraq yaşam şəraiti yaratmaq istəyi və ehtiyatlılıq; 1980-ci illərdəki Lenin paralelində isə Cavidi sovet şəraitinə uyğun tərzdə ucaltmaq istəyi, və bütün bunlarla bərabər, son iki münasibətdə xeyirxah və rəğbətli yanaşma müşahidə edilir. Hər üç yanaşmadakı subyektivlik və ifratçılıq Cavidi və əsərini təhrif edilmiş şəkildə, dövrün düşüncə qəliblərində təqdim etmişdir. Cavid isə qəliblərə sığmayan bir sənətkardır. Öz sözləri ilə desək,

*Onu duymaz, duyamaz hər şaşqın.*

*Bir dəniz şişəyə sığmışmı? Saqın!*

Halbuki "Peyğəmbər" kamilləşmiş insanın bəşəriyyətin nicatı uğrunda mübarizəsinə həsr olunmuşdur; "Şeyx Sənan" və "İblis"in məntiqi davamıdır; Azərbaycan ədəbiyyatında sonuncu sufi-mütəfəkkirin qələmindən çıxmışdır.

H.Cavid yaradıcılığı Azərbaycan ədəbiyyatında yeni bir hadisə, yeni bir bənzərsiz mərhələ olmuşdur. Nədədir Cavid yeniliyi? **Ədəbiyyat tariximizdə Cavidin yeri**, mövqeyi necə qiymətləndirilməlidir?

Ədəbi axtarışlarında, xoşbəxtlikdən, Cavid öz sənətkar mənini tez tapmış, sənət yolunu tez müəyyənləşdirmişdir. Cavid min illik Azərbaycan ədəbiyyatının növbəti inkişaf mərhələsi olan XX əsr Azərbaycan romantizmini yaradanlardan biri və ən böyük nümayəndəsidir. Cavid romantizmi Qərb romantizmindən fərqli bir sənət hadisəsi idi. Ədəbi-estetik baxımdan yanaşdıqda, burada Qərb və Şərq ədəbi-fəlsəfı-ideoloji düşüncəsinin Şərq-türk mövqeyindən sintezinin şahidi oluruq. Burada romantizmin tipoloji əlamətləri ilə klassik Şərq poeziyası, təsəvvüf ədəbiyyatı ənənələri, maarifçilik, türkçülük ideologiyaları qovuşuq halda təzahür edərək yeni milli romantizmin ideya-məzmun əlvanlığım təmin etmişdir. Və bu rəngarənglikdə ziddiyyət, fraqmentallıq, qəlpələnmə yoxdur, bütöv, bitkin bir sistem mövcuddur.

Cavid Azərbaycan mənzum-romantik dramaturgiyasının, faciəsinin yaradıcısıdır. Cavid dramaturgiya və teatra şeiriyyət, poetiklik gətirmiş, əruzu çağdaş dramaturgiyaya doğmalaşdırmış bir sənətkardır. Cavid dramaturgiyamıza yeni mövzular, tragik xarakterlər, kolliziyalar gətirmiş və bütün bunları Şekspiranə bir ustalıqla təqdim edə bilmiş bir sənətkardır. Təəssüf ki, biz hələ Azərbaycanın Şekspirini Qərbə, dünyaya onun öz dühasına uyğun səviyyədə təqdim edə bilməmişik.

İlk dramaturji qələm təcrübəsi – mənzum birpərdəli "Ana" faciəsini xatırlayaq. Bu birpərdəli kiçik dramatik əsərdə elə kəskin kolliziya, qəhrəmanın elə daxili iztirab və təlatümləri yaradılmışdır ki, buna ancaq "Otello", "Hamlet" səviyyəli ciddi faciələrdə təsadüf edə bilərik. Böyük ürəkli ana öz balasının hələ isti meyiti soyumamış, onun namərd qanlısına xilas yolu göstərir. Bu, Cavidin "qan

yox, məhəbbət" mövqeyinə uyğun olsa da, "qonağa, amanda olana toxunmazlar" adəti ilə də əsaslandırılır, müəyyən mənada realistcəsinə inandırıcı görünür. Bununla belə, ana ideyaya tabe edilmiş sxematik obraz təsiri bağışlamır, onun daxili iztirabları – adətin pozulmazlığı və şəxsi intiqam hissi arasındakı çırpıntıları olduqca təbii, təsirli canlandırılır.

Cavid dramaturgiyamıza fəlsəfi düşüncə gətirmiş, fəlsəfi dramaturgiyanın ilk örnəklərini yaratmışdır. Onun mütəfəkkir kimi dünyagörüş sistemi, həyata təkcə şair gözü ilə deyil, həm də filosof gözü ilə baxışları Azərbaycan dramaturgiyasında dram və faciə janrlarının xüsusi bir tipinin – fəlsəfi dramın, fəlsəfi faciənin yaranmasına imkan vermişdir. Avropa dramaturgiyasının təcrübəsindən bilirik ki, fəlsəfi dramlarda, bir qayda olaraq, teatrallıq fəlsəfənin hesabına axsamışdır. "Faust" tipli əsərlər səhnə əsərindən ziyadə, oxu dramı olmuşdur. Caviddə bunun əksini görürük. Onun dramaturji ustalığı ondadır ki, fəlsəfi ideyaları rəmzi surətlərin və real-həyati xarakterlərin çarpışmasında əyaniləşdirərək, dramatizmi qoruyaraq tamaşaçıya çatdıra bilir. "Şeyx Sənan", "İblis", "Xəyyam" kimi əsərlərin uğurlu səhnə təcəssümü buna sübutdur. "Peyğəmbər" əsərinin səhnəyə qoyulmaması isə orada teatrallığın zəif olması ilə deyil, dini hislərə həssas və ehtiyatlı yanaşma zərurəti ilə bağlıdır. "Bu əsərlərin müəllifi şair-dramaturq kimi güclüdür, yoxsa filosof kimi?" – sualına cavab vermək çətindir.

Bildiyimiz kimi, Cavidin dram və faciələrinin mövzuları əhatə dairəsinə görə çox geniş olmuşdur: O həm türk, Şərq, islam tarixinə, həm də müasir mövzulara müraciət etmişdir. Müasir mövzulu əsərlərində də Azərbaycanla bərabər, Türkiyədə, Gürcüstanda, Avropada, İranda cərəyan edən hadisələrdən danışmışdır. Cavid yaradıcılığında "kənar mövzular"a meyli 20-ci illər tənqidi ittiham edir və Azərbaycan həqiqətlərindən uzaqlaşmaq cəhdi kimi qiymətləndirirdi.

Cavidin Şərq mövzularına müraciəti ilə bir tərəfdən Şərq Azərbaycan ədəbiyyatına daxil olur, ədəbiyyatımızı sovet rejiminin arzusuna rəğmən, öz Şərq köklərindən ayrılmağa qoymurdusa, digər tərəfdən, bu, ədəbiyyatımızın ideya-mövzu-məzmun cəhətdən zənginləşməsinə xidmət edirdi. Məgər ingilis ədəbiyyatının ən böyük nümayəndəsi Şekspirin əsərlərinin bir çoxu Skandinaviya,

Danimarka, İspaniya, İtaliya və s. Avropa xalqlarının tarixi ilə, hətta ədəbi mövzuları ilə bağlı deyildimi? Mövzu mənbələrinə görə Şekspir ittihammı olunmalıdır?

Onu da qeyd edək ki, Cavidi bir romantik kimi daha çox qlobal fəlsəfı-bəşəri problemlər düşündürmüşdür. Epoxallıq, vüsət və bəşəri məna romantik faciə üçün səciyyəvi idi. "Nuri-həqiqət" axtaran, bəşərin xilası missiyasına can atan Şeyx Sənan, Arif, Peyğəmbər kimi romantik qəhrəmanlar etnik-coğrafı qəliblərə sığışa bilməzdi.

Onun "Şeyx Sənan", "İblis", "Peyğəmbər", "Xəyyam", "Topal Teymur", "Səyavuş" kimi faciə və dramlarında məhz qlobal fəlsəfı-bəşəri problemlər qaldırılıb öz bədii həllini tapmışdı. Bu əsərlərin qəhrəmanlarının hər biri həqiqət axtarıcısıdır. Həyatı dərk etməyə can atan, həm də ehtirasla can atan narahat ağlın və biliyin faciəsini yaşayan qəhrəmanlardır.

"Şeyx Sənan" da "dinmi – eşqmi, etiqadmı – həqiqətmi" sualları ilə qarşılaşırıq. Özü böyük din təbliğatçısı, təriqət mürşidi olan Sənan öz həqiqətini məhəbbətdə tapır. "Ən böyük din məhəbbətdir" qənaətinə gəlir.

"İblis"də Cavid bəşərin bütün fəlakətlərinin səbəbini insanın daxilindəki İblisdə – nəfsdə görür. Əsərin yazılma səbəbi ilə bağlı kiçik bir haşiyə:

Cavid 1918-ci il Mart soyqırımı zamanı "Təbriz" mehmanxanasındakı bir çox sakinlərlə birlikdə əsir düşür. Onları küçədə arabir saxlayaraq, güllələyə-güllələyə Mayılov teatrının (indiki Opera və Balet Teatrının) binasına aparırlar. Həmin güllələmələrdə 60-70 adamdan cəmi 10-11 adam sağ qalır. Cavid də təsadüf (bəlkə də, Allahın möcüzəsi) nəticəsində sağ qalır. Üç gün əsir qalan ədib hər an ölüm təhlükəsi ilə yaşayır. Onun yaşadığı hissləri biz, yəqin ki, tam təsəvvür edə bilmərik. Azad olduqdan sonra Naxçıvana gedən ədib, keçirdiyi sarsıntıların təsiri altında "İblis" faciəsini yazır.

Aydındır ki, Rusiyada fevral-burjua inqilabı da, Bakıda ermənilərin üstünlük təşkil etdiyi komissarların fəaliyyəti də, xalqımıza qarşı törədilən mart soyqırımı da, konkret tarixi-siyasi səbəbləri və nəticələri ilə bərabər, I Dünya müharibəsinin – böyük müharibənin tərkib hissəsi, yaxud onun təsiri ilə bağlı zəncirvarı baş

vermiş hadisələr silsiləsi idi. Bu hadisələr burulğanına düşən, yaşadığı sarsıntıların təsiri ilə "İblis" faciəsini yazan Cavid proseslərə romantik kimi daha qlobal yanaşır. "Bəşəriyyət bu fəlakətləri niyə törədir? Bir rahi-nicat yoxmu?" sualları onu düşündürür. Hadisələr zahirən Osmanlı ərazisinə aid yerlərdə cərəyan etsə də, əslində İnsan-İblis-Allah müstəvisinə qaldırılır. Gəlinən nəticə:

- *İblis nədir?*
- *Cümlə xəyanətlərə bais.*
- *Ya hər kəsə xain olan insan nədir?*
- *İblis!*

"Peyğəmbər" dramında Peyğəmbərin timsalında Cavid "bəşəri xilas edəcək böyük inqilabi dəyişikliyə və islahatlara düzgün ideya, təbliğ və gücün, qüvvətin birliyi ilə nail olmaq mümkündür" ideyasını irəli sürür.

"Xəyyam" dramında Cavid sanki özünün ideal həqiqət axtarışlarını yekunlaşdıraraq real həyata bağlılıq, həyatsevərlik fəlsəfəsi üzərində dayanır, gəncliyi həyatın qədrini bilməyə çağırır.

Cavid 20-ci illərdə yazdığı "Peyğəmbər" və "Topal Teymur" həmin dövrdə baş verən açıq ideoloji soyqırımına qarşı bədii müqavimətin klassik örnəyi idi. Bu əsərlər görkəmli alim Yaşar Qarayevin sözləri ilə desək, "xalqı xalq edən, milli və dini yaddaşımızı korşalmağa, tor basmağa imkan verməyən əsərlər idi".

Bu kiçik yazıda bir çox əsərlərin üzərində dayanmırıq. Qeyd edək ki, Hüseyn Cavid qlobal bəşəri-fəlsəfı məsələlərlə bərabər, dövrünün qayğılarını, problemlərini də əks etdirmişdir. Müasir mövzulu "Maral", "Uçurum", "Şeyda", "Afət", "Knyaz", çap olunmamış, rejim tərəfindən əlyazmaları məhv edilmiş "Şəhla", "Telli saz" belə əsərlərindəndir.

**Cavidin fəlsəfı-romantik lirikası** ənənəvi göründüyü qədər, öz mövzu, ideya və poetikası ilə yeni bir ədəbi hadisə olmuşdur. Düzdür, o, fəlsəfı-romantik düşüncə tipinə, üslubuna görə klassik poeziyanın övladı sayıla bilər. Lakin lirik şeirdə biz ilk dəfə sevgilisi tərəfindən rədd edilən "vərəmli qız"ların, evsiz-eşiksiz küçədə gecələyən "kiçik sərsəri"lərin, ata-anasını itirən, müəllimi tərəfindən qaba davranılan "öksüz Ənvər"lərin, Şərqi Anadolunun erməni təcavüzünə məruz qalan

məzlumlarının, qaçqınların və s. bu kimi əvvəllər lirik poeziya obyektindən kənarda qalan insanların, təbəqələrin obrazlarının yaradıldığını görürük.

H.Cavidin poetik "mən"ini müəyyənləşdirən dünyagörüş sistemində onun **insan və məhəbbət konsepsiyası** xüsusi önəm daşıyır. Fikrimizcə, bunları ayrı-ayrı konsepsiyalar kimi vermək düzgün deyil, bir-birini tamamlayan, ayrılıqda mövcud ola bilməyən anlayışların vəhdəti kimi götürmək lazımdır. Cavidin ümumbəşəri məhəbbət konsepsiyasında ilk növbədə **İnsan** və ona **Məhəbbət** durur, bütövlükdə isə onun **Humanizmi** ifadə edilir. İlk şeirlərinin birində Cavid mövqeyini belə izah edir:

*Hər qulun cihanda bir pənahı var,*
*Hər əhli-halın bir qibləgahı var.*
*Hər kəsin bir eşqi, bir ilahı var;*
*Bənim tanrım gözəllikdir, sevgidir.*

İlk şeirlərindən başqa birində – "Qız məktəbində" əsərində şair məhəbbətinin obyektini obrazın dili ilə belə konkretləşdirir:

- *Bu dünyada sənin ən çox sevdiyin kimdir, quzum, söylərmisin?*
- *Ən çox sevdiyim ilkin o Allah ki, yeri-göyü, insanları xəlq eylər.*
- *Sonra kimlər?*
- *Sonra onun göndərdiyi elçilər.*
- *Başqa sevdiklərin nasıl, yoxmu?*
- *Var...*
- *Kimdir onlar?*
- *Anam, babam, müəlliməm, bir də bütün insanlar...*

H.Cavidin insan və məhəbbət konsepsiyası, başqa sözlə, ümumbəşəri məhəbbət konsepsiyası bütün yaradıcılığı boyu davam etdirilərək, insanların xoşbəxt və gözəl yaşamaları arzusunun təcəssümünə çevrilmiş, son əsərlərindən olan "Azər" poemasında yaradıcılıq təkamülünün nəticəsi olaraq, öz təbii və məntiqi yekununu belə konkretləşdirmişdir:

*Yeri gəldikdə sülh üçün çabala,*
*Öylə yer var ki, hərbi alqışla,*

*Quzu gördünmü sev, o kin bilməz;*
*Canavar qarşı gəlsə, parçala, əz.*

İlk qələm təcrübələrini nəzərə almasaq, Cavid tələbəlik illərindən romantizm yolunu tutmuş, öz inam və imanına – ümumbəşəri məhəbbət idealına sədaqətini sonadək qorumuşdur.

Caviddən söz düşəndə həmişə onun **şəxsiyyət bütövlüyü**ndən danışılır. Həqiqətən də, həyatda yaşamış Cavidlə əsərləri əsasında xəyalımızda canlanan Cavid obrazı arasında zərrə qədər təzad, ziddiyyət yoxdur. Çünki o, həmişə qəlbinin səsini dinləmiş, onun dediklərini qələmə almışdır. Onu nəyi isə yazmağa, necə yazmağa məcbur etmək qeyri-mümkün idi. "O, sənətkar vicdanına heç vaxt xəyanət etməmişdir" (C.Cəfərov). Bəzən sovet dövrü yazıçılarımızın müəyyən əsərləri barədə "dövrün tələbi ilə belə yazmışdır" ifadələrinə rast gəlirik. Əslində, belə yanaşma o müəlliflərin konyukturçuluğuna haqq qazandıran bəhanədən başqa bir şey deyil. Haqqında danışılan, artıq tarixin arxivinə təhvil verilmiş həmin əsərlər "ölü əsər"lərə çevrilərək milli-ədəbi yaddaşda qoruna bilməmişdir.

Cavid böyüklüyü və xoşbəxtliyi ondadır ki, bircə əsəri, bircə misrasına görə də ruhu xəcalət çəkə bilməz. Bircə misrası da bu gün üçün lazımsız görülə bilməz.

Yarınmaq, hakim rejimlərə "gül axıtmaq" (Cavidin ifadəsidir: "kompliment demək" mənasında işlənir) Cavid fəlsəfəsinə, Cavid xarakterinə yad anlayışlardır. Hələ gənclik illərində İstanbulda təhsil alarkən taxta çıxma günü münasibətilə Sultan Əbdülhəmidə təbriknamə yazan azərbaycanlı tələbələrin imzaları arasında onun imzasını görmürük. Və yaxud həyatı üzərində təhlükəli qara buludlar sıxlaşdığı anlarda belə, "Oktyabr-Lenin-Stalin" şərqilərini ifa edən xora qətiyyən qoşulmamışdır.

Cavid gəncliyindən qürurunu, mənliyini qoruyan şəxsiyyət olmuşdur. Qələmi yalnız həqiqət bildiklərini yazmışdır. Səmimiyyət və həqiqət Cavid yaradıcılığının ən mühüm keyfiyyətlərindəndir. Tələbəlik illərində məktublarının birində yazırdı: "Bən mənliyimi satmaq, əsir olmaq istəməm: əsir olduğum bir şey varsa, o da həqiqət və məhəbbətdir". Və yaxud "Şeyx Sənan" faciəsində dərvişin sözlərini xatırlayaq: "Həqiqət istərim, yalnız həqiqət!"

Bu gün möhtəşəm bir Cavid obrazı gözümüz önündədir. Əsərlərindən və həyatından bəlirlənən Cavid obrazı.

Bu Cavid hər şeydən öncə, romantik aşiqdir, "mənim tanrım gözəllikdir, sevgidir" mövqeyinə sadiq qalan **Gözəllik** aşiqidir. O, **İnsan** və **İnsanlıq** aşiqidir, **Vətən** və **Millət** aşiqidir. O, **Haqqın** və **Həqiqətin**, **Zəkanın** aşiqidir. Cavidin məhəbbət konsepsiyasının bitkinliyi məzmun əhatəliliyindədir.

Cavidi içində yaşadan romantik qəhrəmanları köhnə şüuru, mühafizəkar əxlaqı, fanatizmi, zülmü aradan qaldırmaq, bəşəri-ilahi harmoniyaya əsaslanan təbii-insani əxlaq səltənəti, gözəllik və nurlu ağıl səltənəti qurmaq istəyirdi. Bu – Cavidin romantik idealı idi!

İdeala doğru can atan Cavid acı reallıqlarla, bəşəriyyətin çıxılmaz kolliziyaları ilə üzləşdikdə həmişə haqqın yanında olmuşdur. O, Şərlə Xeyirin, Zülmətlə Nurun çarpışmasında Xeyirin, Nurun təmsilçisidir; Hakimlə Məhkum qarşıdurmasında, istər fərd, insan mənasında, istərsə hakim Qərb və məhkum Şərq, yəni millətlər mənasında həmişə haqqı tapdalanın tərəfdarıdır. İblis və iblislərlə Tanrı və tanrılaşmış kamil insanların münaqişəsində Tanrı və kamil insanın nümayəndəsidir. Məncə, Cavid Nizami, Nəsimi, Füzuli kimi ədəbi-tarixi kamil insanlar sırasında dayanan, sələflərinin işini və əməllərini XX əsrdə layiqincə davam etdirən bütöv bir şəxsiyyətdir.

Cavid həyatda təmkinli, vüqarlı, sakit, bütün hallarda ləyaqətli bir **Kişi** olmuşdur. Lakin daxilində bir barışmazlıq, etirazkarlıq, coşqun üsyankarlıq yaşatmışdır. Onun yaradıcılığı **Həyat**, **Bəşər** və **Gözəllik** aşiqi insanla **Zaman** arasındakı təzadların inikasına həsr olunmuşdur. Bu təzad Cavid kədərini doğurur. Bu kədər bəşəri olduğu qədər də millidir. Ümumiyyətlə, H.Cavid bəşəri olduğu qədər, həm də milli sənətkardır. **Cavid milliliyində türkçüdür**, ondakı millilik böyük türk milliliyidir, vətənpərvərliyidir. Bu mənada Cavid İsmayıl bəy Qaspıralı, Əli bəy Hüseynzadə, Əhməd əy Ağaoğlu, Ziya Gökalp yolunun yolçusudur; böyük türk dünyasının vətəndaşıdır. 20-ci illərdə Cavid bir çıxışında bu mövqeyini çox dəqiq ifadə etmişdir. Əlifba islahatı ilə bağlı keçirilən bir mötəbər müzakirədə Caviddən mövqeyini soruşurlar. Təvazökarlıqla belə cavab verir: "*Mən olsa-olsa,*

*türk dünyasının haqqı ilə düşünən bir müəlliməm. Siz hansını qəbul edərsiniz, mən də tələbələrimə o əlifba ilə öyrədərəm*".

Türk millətinin şərəfli tarixi, zəfərlərlə zəngin keçmişi, dövlətçilik ənənələri, mədəni irsi ilə fəxarət duyğusu yaradıcılığının bütün mərhələlərinə aid əsərlərində əks olunmuşdur. "Qoca bir türkün vəsiyyəti", "İsmayıl bəy" şeirləri, "Maral", "Uçurum", "İblis", "Topal Teymur" kimi pyeslərinin bu baxımdan böyük önəmi vardır. Ədib "Topal Teymur" dramında Teymurun dili ilə deyir:

"*Avropalıların dilləri başqa, yürəkləri daha başqadır. Hər halda məmləkətimiz arslanlar yurdu, qartallar yuvası olaraq qalmamalı. Bəlkə dünyada ən parlaq maarif və mədəniyyət ocağı, ən zəngin sənaye və ticarət mərkəzi olmalıdır. Əvət, qoy düşmanlarımız görsünlər ki, türk evladı yalnız basıb-kəsməkdən deyil, yaşamaq və yaşatmaqdan da zevq alır. Yalnız yaqıb-yıqmaq deyil, yapmaq və yaratmaq da bilir. Bununla bərabər, yapdıqlarımız hiç bir şey deyil. Bu, yalnız mədəniyyətə doğru bir addım, gələcək için bir başlanğıcdır. Bizim başladıqlarımızı gələcək nəsil ikmal etməli. Yalnız beş-on şəhər deyil, bütün məmləkət tərəqqi və gözəlliklər için birər nümunə olmalı. Əvət, biz təməl daşı atıyoruz. İştə bu təməl üzərində möhtəşəm binalar qurmaq və bu şüarı çiçəkləndirmək... ancaq yeni nəslə, ancaq sarsılmaz gəncliyə aiddir*".

Cavid türkçülüyü bəşəriliyə zidd deyil, başqa millətlərin varlıq haqqına yad deyil, şovinizmdən uzaq bir millilikdir. Qloballaşan dünyada öz yerini tutmaq, hifz etmək, tərəqqiyə, mədəni inkişafa səsləyən bır millilikdir.

"İblis"də deyilir:

*Turana qılıncdan daha kəskin ulu qüvvət,*
*Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət...*

Cavid milliliyində Azərbaycan türk dünyasının bir parçasıdır və Cavid azərbaycanlı olmağı ilə fəxr etmişdir. O özünün azərbaycanlı mənsubiyyətini avtobioqrafik qəhrəmanının (Azərin) dili ilə fəxrlə belə bəyan edirdi:

*Mən yetişdim atəşlə su*
*Öpüşdüyü bir ölkədən.*

Cavid özünü həm türk dünyasının, həm də doğma Azərbaycanın bir parçası hesab

edirdi. Lakin azırbaycançılıq Caviddə poetik manifest səviyyəsinə yüksəlmir. O, romantik üslubuna uyğun tərzdə vətəninin "atəşlə suyun öpüşdüyü ölkə" (yəni Xəzərin qoynundakı neftli torpaqlar ölkəsi) olduğunu qürurla qeyd edir. Azərbaycan dərdi, Azərbaycan taleyi, Azərbaycan mövzusu böyük sənətkarın "Bakıda" dramatik poemasında, "Azər", "Topal Teymur", "Şəhla", "Telli saz" əsərlərində öz ifadəsini tapmışdır.

Yuxarıda Cavid kədərindən söz açdıq. Deməliyik ki, Cavid kədərində üsyankar, etirazında kədərlidir. "İblis"də Mələyin:

*Sellər kimi axmaqda qızıl qan,*
*Canlar yıxar, evlər yıxar insan! –*

nidasındakı bəşəri kədər Azərin ("Azər" poeması) dilindən deyilən, qaniçən sovet-bolşevik rejiminin üzünə sillə kimi çırpılan aşağıdakı misralarda konkret milli məzmun kəsb edir, özünün zaman və məkan konturlarını konkretləşdirir:

*Rəqsi təlim ediyor axsaqlar,*
*Əzəmət düşkünüdür alçaqlar.*
*Yurdu sarmış qabalıq, yaltaqlıq.*
*Yüksəliş varsa səbəb alçaqlıq.*
*Hər gülər üzdə ölüm, qan görürəm,*
*Pək yaxın dostları düşman görürəm.*

1937-dən 9 il öncə yazılmış bu misralar "Cavid müasirlikdən uzaqdır, o, Azərbaycandan yazmır" ittihamlarına nə qədər də tutarlı cavabdır. Bu misralar onu da göstərir ki, "məncə, ədəbiyyat başqa, siyasət başqadır" sözlərini bəyan edən Cavid, öz sözləri ilə desək, şeir adına "siyasət türküləri inlədən"lərdən nə qədər uzaqdırsa, dövrün, zamanın, antimilli bir rejimin siyasi-tarixi qiymətini bir o qədər də düzgün və obyektiv verə bilmişdir.

Bir neçə kəlmə də **qloballaşan dünya və Cavid yaradıcılığı** haqqında.

Əsrimiz qloballaşma əsridir; iqtisadiyyatın, siyasətin transmilli xarakter aldığı bir əsrdir. Qloballaşma ictimai tərəqqiyə yol açdığı kimi, onun meyarlarına uyğunlaşan millətlərə yeni qayğılar da yaşadır. H.Cavidin yaradıcılığı bu həssas problem baxımından da maraq doğurur. Cavid bu problemlərə hələ keçən əsrin

birinci yarısında "Şərq-Qərb" münasibətləri müstəvisində dəfələrlə toxunub. "Hərb və fəlakət", "Maral", "Uçurum", "Azər" əsərlərində öz mövqeyini ifadə edib. O. bir tərəfdən "Qərbin səadətlərinin Şərqin fəlakətlərindən qida aldığını vurğulayır, müstəmləkəçi Qərbi məzlum Şərqin mövqeyindən ittiham edir; digər tərəfdən Əli bəy Hüseynzadənin "avropalaşmaq" tezisini – Qərbin öncül elm, texnologiya, mədəniyyətini mənimsəməyi vacib sayır. Üçüncü bir tərəfdən bu münasibətlər zamanı milli mədəniyyətin, mənəviyyatın, əxlaqın deqradasiya təhlükəsi haqqında da həyəcan təbili çalır. Təxminən, yüz il öncə yazılmış "Uçurum" faciəsində İstanbul gəncliyinin fransızlaşmasını ürək ağrısı ilə təsvir edir:

*O gün ki, İstanbulda*
*Gənclik fransızlaşdı,*
*Getdikcə türk övladı*
*Uçuruma yaklaşdı.*
*Yurdumuzu sardıqca*
*Düşkün Paris modası,*
*Hər kəsə örnək oldu*
*Sərsəm firəng ədası.*
*Sərxoşluq, iffətsizlik*
*Sardı bütün gəncləri,*
*Zəhərləndi getdikcə*
*Məmləkətin hər yeri*
*Qəhrəman Oğuzların*
*...Sarzılmaz xələfləri ...*
*Avropadan fəzilət,*
*Himmət, ciddiyyət, vüqar*
*Dururkən yalnız çürük*
*Bir züppəlik aldılar.*

Nə qədər düşündürücü, nə qədər müasirdir.

Bu gün Cavid ruhu o mənada rahat ola bilər ki, doğma yurdundakı əzəmətli

məqbərəsi – əzizləri ilə bir yerdə uyuduğu müqəddəs məkan xalqının ziyarətgah yeridir; Bakıda adını daşıyan bağda əzəmətli heykəli ucalır; vaxtilə yaşadığı evinin zorla söndürülmüş çırağı yenidən yandırılıb – ev-muzeyi kimi fəaliyyət göstərir; ona mənəvi övladlıq edən insanlar bu ocağın istisini yaşadırlar; əsərləri külliyyat şəklində çap olunur və tamaşaya qoyulur. Cavid ruhu o mənada şad ola bilər ki, yolunda ağlı, düşüncəsi, istedadı, ilhamı ilə xidmət etdiyi və həyatını qurban verdiyi xalqı və dövləti ona qarşı böyük qədirbilənlik və ehtiram nümayiş etdirir.

Biz əminik ki, Hüseyn Cavidin mənalı və ibrətverici həyatı, şəxsiyyət kamilliyi, zəngin ədəbi irsi və fikir dünyası müstəqil Azərbaycanın neçə-neçə yeni vətənpərvər gənc nəsillərinin formalaşmasında misilsiz rol oynayacaqdır.

Cavid unudulmazdır!

Cavid adı kimi əbədidir!

Cavid ölməzdir!